

# Atababa İSMAYILOĞLU

Amansız ölüm tanınmış teatrşünas, yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi, "Ədəbiyyat qəzeti"nin məsul katibi Atababa İsmayıloğlunu aramızdan apardı.

Atababa İsmayıl oğlu Hacıbabayev 1947-ci il sentyabrın 22-də Bakı yaxınlığındakı Xırdalan qəsəbəsində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra 1966-1971-ci illərdə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun tetarşünaslıq fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1971-ci ildə Azərbaycan Teatr Cəmiyyətində redaktor kimi başlamış, sonra burada baş redaktor olmuşdur. Azərbaycan Respublikası Xarici Ölkələrlə Əlaqə Cəmiyyətində nəşriyyat şöbəsi müdirinin müavini, "Sovet Azərbaycanı bu gün" məcmuəsinin redaktoru (1977-1981), Azərbaycan Teatr Cəmiyyətində bədii rəhbər (1981-1987) işləmişdir. 1987-ci ildən "Ədəbiyyat qəzeti"ndə məsul katib vəzifəsində çalışmış, "Yeni nəşrlər" katoloq-jurnalının redaksiya şurasının sədri, Cəlil Məmmədquluzadənin ev-muzeyinin elmi şurasının üzvüdür. Uzun müddət M.A.Əliyev adına İncəsənət İnstitutunda teatrşünaslıq fənnini tədris etmişdir.

Bədii yaradıcılığa şeirlə başlamışdır. "Gənclik" adlı ilk mətbu şeiri 1965-ci ildə "Abşeron" qəzetində dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda lirik şeirlər, satira, yumoristik yazılar və publisistik məqalələrlə çıxış etmişdir. Ədəbi fəaliyyətində teatr tənqidi və tetar tarixi problemləri xüsusi yer tutur. "Mirzağa Əliyev. Xatirələrim" kitabını tərtib və nəşr etdirmişdir (1974). Oncildlik Azərbaycan Sovet Ensiklopediyasında teatrşünaslığa dair oçerkləri dərc olunmuşdur. Onun radio-pyesləri və verilişləri rəğbət qazanmışdır. Xarici ölkə mətbuatında satirik və yumoristik hekayələri çap olunmuşdur.

Ədəbi fəaliyyətinə görə bir sıra ictimai təşkilatın diplom və fəxri fərmanlarına layiq görülmüşdür.

Atababa İsmayıloğlu "Rza Əfqanlı", "İki cəbhənin əsgərləri", "Unudulmaz səhnə ustaları", "Səhnə andı", "Molla Qeybullanın sərgüzəştləri", "İnkirlə Minkirin hüzurunda", "Mizan və tərəzi" adlı kitablarını nəşr etdirmiş, dünya ədəbiyyatından bir sıra uğurlu tərcümələr etmişdir.

Atababa İsmayıloğlu səmimi və qayğıkeş insan, gözəl ailə başçısı, əsl vətəndaş-ziyalı kimi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**